

XALİQ AZADİ

# ÜÇ DÖVRÜN GÖRÜŞÜ

*(poemadan parça)*

Keçir gecə, aləm yatır, yatmır fikir, düşüncələr,
Mənə , "hələ yatma!" - deyir, yol eyləyir xatirələr.

"Yatma!", -deyir, dünənimnən bu günümə pay gətirir,
Keçirdiyim illərimdən neçə-neçə say gətirir!

"Yatma!"- deyir xatirələr, - gedək keçmişi gəzməyə!
Unuduram - bu xəyaldı, başlayıram sevinməyə!

Bilirəm ki, bu səfərdə sevinclər izləyir məni,
Mən sevdiyim - məni sevən insanlar gözləyir məni.

Xatirələr bir üfüqdür, sonsuz, ucu-bucağı yox,
Bu günümün soyuğunu yox edəcək ocağı yox!

Uzaqlarda nə görürəm; bir məğrur gənc addımlayır,
Üz-gözündən sevinc yağır, sabahını salamlayır!

Gələcəyə inam dolu baxışları deyir nələr,
Yolunda gözləyir onu neçə-neçə xoşbəxt illər!

Xoşbəxt insan! Ürəyində bir yenilməz sevgisi var,
Səadətə yol götürən Həyat adlı vergisi var!

Cavanlığın gücü onda, inamlıdır addımları,
Sevilib-sevən ürəyi - zirvələrin təmiz qarı!

Yanaşıram, bir keçmiş tək, o baxışlar görmür məni,
Uzaqlarda zirvələrə cəm edibdi diqqətini!

Hazırlaşır fəth etməyə yoxuşunu zirvələrin,
Ondan yaman uzaqdadır əsən yeli fəsillərin!

O üfüqi ötür xəyal, baxır bir azca uzağa.
Gəncliyim qalır arxada, çevrilirəm bir uşağa!

***

Nə görürəm, aman Allah! Bu nə səs-küy, nə qışqırıq?
Qayalıqda oyun olar? Şalvar olub cırıq-cırıq.

Hara gəldi, dırmaşırıq. Oyun olsun, fərqi yoxdu.
Yemək nədir - yada düşmür, elə bil ki, hamı toxdu.

Oynamışıq "Ənzəlini", indi isə "Çilik - ağac",
Sabahasa qərar çıxıb, oyunumuz "Top-aldı-qaç"!

Dərs oxumaq vaxtı çatır, neynəyək, evə qaçırıq,
Özümüz də hiss etmirik - gələcəyə yol açırıq!

Yemək, paltar, kitab hardan - bunun nə dəxli var mənə,
Bir qayğım var: tez böyüyüm, sevinirəm keçən günə!

Sağ-salamat ata-ana, qayğı, fikir mənlik deyil,
Bayaq gördüyüm gəncliyə bir addımdır hər keçən il!

***

Xatirələr "gedək!"- deyir, səfərinə davam edir.
Ötür uşaqlıq dövrünü, körpəliyə qonaq gedir!

...Nədir, görən, doğulanda? Başlanğıcmı, ya sonmudur?
Yoxsa bu sirli həyatda iki üzlü bir donmudur?..

Gedə-gedə, fırladıram xəyalımda bu sualı,
Nə qurtarmır, nə başlamır, bu həyatın sirli yolu.

Nə olsun adlar dəyişir, həyat nə var - elə qalır!
Bu üç dövran, bu üç məkan - ömrün sirli qalmaqalı.

Kim gəlməli? Kim getməli? Hardan gəlir belə qərar,
Dünya sanki, bir kitabdır, vərəqlənir təkrar-təkrar!

Budur, xəyal gəldi çatdı, eylədi yaxın uzağı,
Durmuşam, bir ev görürəm. Bu evin iki otağı.

***

Bu evin varıdır iki otağı,
Biri gedənindir, biri gələnin.
Birində şənlikdir, birində - ağı,
Biri ağlayanın, biri gülənin!

Bir körpə səs salır, dünyaya gəlir,
Xoş gəlir - çəkməyə dünya cəfasın.
Qonşu otaqdasa biri köç edir,
Son anda eşidir "Gəldim!"- sədasın!

Bir evdə bir körpə doğulub bu gün,
Bir körpə səsini salıb dünyaya.
Arzu qanadında yetirib özün,
Sevinclər bəxş edib ata-anaya.

Dünyaya mən gəldim, böyümək üçün,
Böyüyüb körpəli qoca olmağa.
Böyüyüb bildim ki, gələcək o gün,
Qocalıb keçəcəm qonşu otağa!

***

...Yol edəcək ömrümüzdən bahar, payız, neçə illər,
Qaytaracaq o illəri, düşünəndə xatirələr!

Bu günümdən gələn qoca söykənəcək əsasına,
Üfüqlərə göz dikəcək, düşüb fikir dəryasına!

Cavanlığın sevgisində bu qocanın da gözü var,
Qayğısız dəcəl uşağa, söyləməyə çox sözü var.

Yorğun qoca ürəyində deyilməmiş qalır nələr,
Açılmağa bu ürəyin, daha, çətin vaxtı gələr!

Qulaq asın, ay insanlar: sevin vaxtı, verin qiymət,
Var-dövlət olmasa olar, vaxtdır, dəqiqədir sərvət!

Qiymət verin hər bir ana, uşaqlığa qiymət verin!
Yaradanın bəxş etdiyi cavanlığa qiymət verin!

## *AY USTA*

Nə vaxt ki, mizrabı vurursan simə,
Odlanır ürəyim, inan, ay usta!
Huşum qanad açır, gedib uzağa,
Dayanır bu ömür, zaman, ay usta!

"Sarıtel" səslənir - oluram yoldaş,
"Kərəmi" üstündə tökürəm qan-yaş!
Qurbani oluram, bir anlıq, qardaş,
Bağlayır yolumu duman, ay usta!

Simlər dilə gəlir, Qərib ağlayır,
Şahsənəm gözləyir, sinə dağlayır.
Zülm edir, yolların yaman bağlayır,
Lələnin, Kərəmin boran, ay usta!

Mizrabın qaytarır keçəni geri,
Tən edir könlümdə sevinc-kədəri
Arxada qoyduğum gənclik illəri,
İstəyir ömürdən aman, ay usta!

Çal qardaş, yaşatsın bizi xəyallar,
Qərib ürəklərdə azalsın qübar!
Xaliqə "Gəl!" - desin o düzlər, dağlar,
Çin olsun görüşə güman, ay usta!

## ANA YURDUM, SƏN BİR SİRLƏR DÜNYASI

Gözəl diyar, sən bir sirlər dünyası,
Nə qədər gözəllik var olur səndə!
Yaşıl meşələrin, şiş qayaların,
Cənnətə pay olan bar olur səndə!

Nə qədər olsa da dövranın nəsi,
Şirindir səninlə "vüsal" kəlməsi!
Zirvədə qıy vuran qartalın səsi,
Nəğməli saz olur, tar olur səndə!

Vurğunam hüsnünə, bahar - yazına,
Qoynunda boy atan oğul-qızına.
Dədə Ədalətin qəmli sazına,
Əslisi-Kərəmi yar olur səndə!

Xaliqin sevgisi möhtəşəm diyar,
Bu sirli gözəllik görən harda var?
Dağların ətəyi yaşıl bağça-bar,
Zirvəsi keçilməz qar olur səndə!

## AXTAR

Məni axtarmağa gecikmisən sən,
Keçmişin alovlu ilində axtar!
Eşqin dəryasında üzən gəncliyin,
Görüşə səsləyən dilində axtar!

Sənin gəlişinnən xəbər gətirən,
Dünyanı gözümdən alıb itirən,
Qara tellərinə sığal yetirən
Bahar axşamının yelində axtar!

Odlu məhəbbətin şahidi olan,
Məni heyran edən gülüşlə dolan,
Dözməyib həsrətə saralıb-solan,
O şehli çəmənin gülündə axtar!

Vüsal atəşiylə alışanda biz,
Sular qırağıydı görüş yerimiz.
Oturub baş-başa seyr etdiyimiz,
Çayların gurlayan selində axtar!

Yollar nə olacaq, mən nə bilərdim!
Bu da bir yazıydı! Mən nə edərdim?
Xaliqəm, dərmanın bu böyük dərdin,
Axan göz yaşımın gölündə axtar!

## BƏSDİ

Gözəl pəri, nə zülümdür, edirsən,
Ədalət yolunu seçginən, bəsdi.
Ya cəllad ol, al canımı biryolluq,
Ya da, günahımnan keçginən, bəsdi!

Amandı, rəhm eylə, söyləmə "qan-qan",
İbrət olmadımı bu qədər hicran?
Könlümdə yer tutan eşqin camından,
Qaldırıb, doyunca içginən, bəsdi!

Hicran atəşində mən çəkdim nələr,
Mənə həmdəm oldu qüssə, qəm, kədər.
Bağlı saxladığın, bu neçə illər,
Könül qapısını açgınan, bəsdi!

Xatirə yaşayır qəmli yadımda,
Bir dünya qızınar ürək odumda!
Dumanlı-cisginli həyat yolumda,
Çevrilib günəş tək saçgınan, bəsdi!

Xaliqəm, səsləyir bizi həmişə,
İlk görüş yerimiz - o gizli guşə.
İnsaf et, yenə də bir çıx görüşə,
Həvəsnən qarşıma qaçgınan, bəsdi!

## DÜNYA

Hərdən meydan oxuyursan,
Baxırsan qıyğacı, dünya!
Gah tuş edirsən sevinci,
Gah da ehtiyacı, dünya!

Xatirələr qəmə dalır,
Gedir - keçmişlərdə qalır.
Ömür keçir, baş qocalır,
Ağardırsan saçı, dünya!

Fələk bizi yaman yorur,
Qocalıq tək hiylə qurur.
Qapının ağzında durur,
Ahıllığın köçü, dünya

Gah yollara tor atırsan,
Gah bala zəhər qatırsan.
Bu Xaliqi qocaldırsan,
Nəymiş onun suçu, dünya?

## SÖYLƏSİN

Öz-özünü öymə, heç vaxt,
Tərifini el söyləsin!
Sevinc yetir ürəklərə,
Könül gülsün, dil söyləsin.

Ağlayanın sil göz yaşın,
Haqqın yolu olsun işin.
Yerə əyilməsin başın,
Dursun məğrur, zil, söyləsin!

İmdad eylə əlsizlərə,
İstəsələr neçə kərə!
Qiymətini yetimlərə,
Uzatdığın əl söyləsin!

Olma vara-döylətə qul.
O dünyaya nə lazım pul,
Burda varlı, orda yoxsul,
Hinkir-Minkir, gəl, söyləsin.

Düzgün olmaz ləyaqəti,
Dalda edərsə qeybəti.
Xaliq, qoy gülün söhbəti,
Aşiqi bülbül söyləsin!

## KEÇMİŞƏ SƏYAHƏT

Fikirlər yol edir, gedir uzağa,
Bu günün əlindən məni qoparır!
İndiki qayğını qoyub qırağa,
Xəyal dünyasına məni aparır!

Elə bir dünyaya düşürəm ki, mən
Təzəcə gül açır doğan arzular.
Gözəl gələcəyə ümidlər verən,
Gedir üfüqlərə uğurlu yollar!

Yox olur reallıq, qayıdır dünən,
Zirvələr yol üstə! Parlayır Günəş,
Dayanıb dünənim - sevilən, sevən,
Zirvəyə dikələn gözlərdə atəş!

Baxışlar zillənib gözəl sabaha,
Nəzərə almayır dərə-təpəni.
Böyük gələcəkdir məqsədi daha,
Dünəndə saxlayıb olub-keçəni.

Eşqin yollarında usana bilməz,
Fərhada çevrilən dünənimə bax!
Ülvi məhəbbətin gücü yenilməz,
Necə tab gətirər buna qaya-dağ?

İlahim, nə gözəl dünya olarmış,
Niyə tərk etmişəm belə bir yeri!
Xəyal təkid edir: oyanma, yapış,
Qayıtma bu real dünyaya geri!

## QEYBƏT EYLƏYİR

Pozulur zəmanə, çoxalır yalan,
Daz keçəl şeytandan qeybət eyləyir.
Qarğa qırıldayır, fikir söyləyir,
Ot yeyən heyvandan qeybət eyləyir.

Yaman moda düşüb olmaq ziyalı,
Samitdən-saitdən yoxdu əhvalı.
Dərk edə bilməyən sadə misalı,
Zehində ümmandan qeybət eyləyir!

"Qafiyə" sözünü tanımayan kəs,
Ələsgər olmağa eyləyir həvəs!
Ağıllı söz tapmır, nadan salır səs,
By axmaq zamandan qeybət eyləyir!

Zərin qiymətini verməli zərgər,
Dəmirə dəmirçi, taxtaya dülgər!
Yaxşılıq qanmayan avara, sərsər,
Yaxşıya yamandan qeybət eyləyir!

Aramsız danışan, aramsız yazan,
O demək deyil ki, ustadır insan!
Ay Xaliq, düz yolda yolunu azan,
Dağlarda dumandan qeybət eyləyir!